

Мусиги бүтүн ҹанлыларын үрәк дилидир. Тәрҹүмәјә еһтијаҹы олмајан бир дилдир.

Musiqi bütün canlıların ürək dilidir. Tərcüməyə ehtiyacı olmayan bir dildir.

# MƏN YAZMASAM...

*Bəzən gündə görüşdüyün, kəlmə kəsdiyin adamların böyüklüyünü sonradan başa düşürsən...*

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında səmərəli çalışan müəllimlərimizdən biri — heç şübhəsiz ki, Lalə Oruc qızı Dadaşovadır. Təsadüfi deyil ki, Akademiyanın 90 illik yubiley günlərində Lalə Dadaşova Prezidentimizin fərmanı ilə bir sıra həmkarlarımızla bir sırada "Əməkdar müəllim" fəxri adına layiq görüldü. Lalə Dadaşova elə doğma konservatoriyamızın yetirməsidir. O, Tarix-nəzəriyyə fakültəsini musiqişünaslıq üzrə 1972-ci ildə bitirib. Uzun illər uşaq musiqi məktəbləri sistemində çalışıb, Mədəniyyət Nazirliyi nəzdindəki metodik kabinetdə öz bacarığını əsirgəməyib. L.Dadaşovanın (A.Qalabəyova ilə birgə) musiqi məktəbləri üçün nəzərdə tutulan və 1987-ci ildə işıq üzü görmüş "Azərbaycan musiqi ədəbiyyatı müntəxəbatı" — indinin özünəcən bu sahədə dəyərli vəsait sayılır.

L.Dadaşova 1992-ci ildən Azərbaycan Dövlət Konservatoriyasının "Musiqi nəzəriyyəsi" kafedrasında öncə əvəzçi müəllim, ondan iki il sonra müəllim, baş müəllim və 2006-cı ildənsə dosent vəzifəsində çalışır. O, harmoniya, solfecio, nəzəri fənlərin metodikası, musiqi əsərlərinin təhlili kimi fənləri böyük həvəslə öyrətməkdədir.





Lalə xanım bununla belə sırf musiqişünas kimi də xeyirli iş görür, bəstəkarlarımızın yaradıcılığı barədə məqalələr, rəy və annotasiyalar yazır, elmi-konfranslarda, televiziya-radio verilişlərində, dövrü mətbuatda öz peşəkar sözünü deyir. Onu da qeyd edək ki, Lalə xanım Dadaşova "Azərbaycan Bəstəkarlar İttifaqı" məlumat kitabının müəlliflərindən biridir. "Azərbaycan Bəstəkarlar İttifaqı — 75" Beynəlxalq musiqi festivalının kamera konsertinə annotasiyaların müəllifi də odur. Lalə xanımın elmi-nəzəri konfranslarda çıxışlarını xüsusi qeyd etmək istərdim. Doğma Akademiyamızda belə konfranslar çox maraqlı keçir. Belə konfranslarda professor-müəllim heyəti, doktorantlar, gənc tədqiqatçılar maraqlı fikirlər söyləyir. Yeni əsərlər ifa olunur. Öz sənətinə olan vurğunluğu və eyni zamanda bir pedaqoq kimi tələbkarlığı Lalə xanımın dərslərini maraqlı bir məcraya yönəldir. Mən deyərdim ki, Lalə xanım Dadaşovanın mühazirələri, həmçinin yüksək professional səviyyədə apardığı praktiki məşğələlər tələbələrdə hədsiz maraq doğurur.

Yeri gəlmişkən, professor, Xalq artisti, bəstəkar Sevda İbrahimovanın Lalə xanım barədə dediklərini çatdırmaq istərdim: "Gəncləri və sənətini sevən hər bir müəllim kimi, Lalə xanım tələbələrə sadəcə bilik verməklə kifayətlənmir — o, eyni zamanda gənclərin dünyagörüşünü formalaşdırmaqda, onlara mənəvi keyfiyyətləri aşılamaqda öz tövsiyyələrini əsirgəmir. Orası təqdirəlayiqdir ki, dosent Lalə Dadaşova dərs dediyi fənləri sərbəst və sərrast şəkildə azərbaycan, həm də rus dillərində aparır".

***

Bu gün həmkarlarımın adından cəsarətlə deyərdim ki, "Musiqi nəzəriyyəsi" kafedrasının dosenti, Azərbaycanın Əməkdar müəllimi Lalə xanım Dadaşova yaxşı tanınan, istedadlı musiqişünas və nəcib insanlardan biridir. Solfecio fənninə Lalə xanımın xüsusi yanaşması da göz qabağındadır. Musiqi nəzəriyyəsinə aid Solfecio fənni tədris prosesində mühüm rol oynayır. Lalə xanımın metodik tövsiyyələri gənc müəllim və tələbələrə yardımçıdır. Onun Solfecio kursu üzrə hazırki dərs vəsaitində "İki və üçsəsli musiqi imlaları" (Bakı: Elm və təhsil, 2014) Azərbaycan bəstəkarlarının əsərlərindən, milli folklorumuz və dünya musiqi ədəbiyyatından mövzuya dair nümunələr təqdim olunur. Açığını deyək ki, bu nümunələrin seçilmə və sistemləşməsi məsuliyyət tələb edir. Fikrimizcə, ən çətin iş bu nümunələr üzərində çalışma prosesidir, yəni istər operadan, istər simfoniyadan, istər kamera-instrumental əsərlərdən götürülən nümunələr sadə fakturada və dəqiqliklə təqdim olunmalıdır. Dərs vəsaiti iki bölmədən ibarətdir. I bölmədə sadədən mürəkkəbə doğru imlalar, II hissədə isə — daha çox istedad, bacarıq tələb edən üçsəsli nümunələr. Dərslikdə klassik bəstəkarlarımızın, o cümlədən Üzeyir Hacıbəylinin, Müslüm Maqomayevin, Əfrasiyab Bədəlbəylinin, Səid Rüstəmovun və başqalarının ən ifadəli və geniş yayılmış əsərlərindən nümunələr verilir. L.Dadaşovanın dərs vəsaiti həqiqətən ən yüksək elmi-professional səviyyədə hazırlanıb. Diqqəti çəkən bir cəhət də müəllif tərəfindən yazılmış "Metodik göstərişlər"dir. Bizim üçün — yəni müəllim və tələbələrə ünvanlanan bu dəyərli dərs vəsaiti sözün əsl mənasında bizlərə gərəklidir. İkinci belə bir dərsliyin çapdan çıxmasını səbrsizliklə gözləyirik...

**İmruz Əfəndiyeva**

*Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Sənətşünaslıq doktoru, Əməkdar İncəsənət xadimi*

◆